# Təlim fəaliyyətində kiçik yaşlı məktəblilərin idraki maraqlarının psixoloji səciyyəsi

**Rəna Nüsrəddin qızı Cəbrayılova**
*ADPU-nun Pedaqoji psixologiya kafedrasının baş müəllimi*
**E-mail:** r.jabrailova@rambler.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. M.C. İsmayılova,
psixol.ü.f.d. N.M. Məmmədova

**Açar sözlər:** idraki maraq, yönəlişlik, motivlər, dərketmə üsulları, sosial təcrübə
**Ключевые слова:** познавательный интерес, ориентация, мотивация, образ мышления, социальный опыт
**Key words:** cognitive interest, orientation, motivations, ways of thinking, social experience

İdraki maraq kiçik yaşlı məktəblilərin mühüm təlim metodlarından biridir. O, şagirdlərin fəaliyyətinin düzgün təşkili, o cümlədən idraki maraq sistematik, məqsədyönlü təlim fəaliyyətində şagirdlərin şəxsiyyətinin davamlı xassəsi olub onun inkişafına böyük təsir göstərir. İdraki maraq təlim prosesində yaranır və formalaşır.

Q.Y.Şukina qeyd edirdi ki, şəxsiyyətin idraki marağı və idraki fəallığı qarşılıqlı olaraq bir-birini şərtləndirir və formalaşır. İdraki maraq idraki fəallığı şərtləndirir, öz növbəsində onun yüksəlməsi idraki marağı möhkəmləndirir və dərinləşdirir (11).

Təlim fəaliyyətində idraki maraq xüsusi və mühüm maraq fenomeni ilə müəyyən edilir. İdraki marağın predmeti insanın ətraf aləmlə birgə fəaliyyətində onun marağının həyata keçirilməsi şəraiti ilə şərtlənir. N.Q.Morozov idraki marağı insanın ətraf aləmə fəal emosional-idraki münasibəti kimi səciyyələndirir. Alim tədqiqatçı marağın iki səviyyəsini ayırmışdır: *situativ (epizodik)* və *təşəbbüskar.*

*Situativ maraq* həmin anda əşyalara münasibətdə təəssüratların nəticəsi kimi özünü göstərir. O dəyişkən olub eyni vaxtda müvafiq fəaliyyətin dayandırılması ilə müəyyən edilir. Belə marağın təsirinin nəticəsi sıfıra bərabərdir. Marağın *təşəbbüskar səviyyəsi* məmnunluğun mənbəyinin fəal axtarışına yönəldilən cəhdin nəticəsi ilə təyin olunur. O davamlılığı ilə fərqlənir. Bu səviyyənin uşağa təsiri onunla nəticələnir ki, o idrak fəaliyyətin məqsədinə yönəlmiş olsun.

Maraq məmnunluq hissi ilə bağlı olaraq daha da artır. İdraki maraqların məmnunluğunun vasitəsi yeni bilik və informasiyalardır. Maraq münasibət kimi inkişafın ilkin mərhələsində təzahür edir. Münasib şəraitdə emosional münasibətlər şəxsiyyətə istiqamətlənməklə daha da artır, onun həyati fəaliyyətini müəyyən istiqamətə yönəldir. Əgər insan müəyyən fəaliyyət növü ilə həmişə məşğul olursa, o zaman idraki maraq meyllilik xarakteri daşıyır.

A.Ю.Дейкина təsdiq edir ki, maraq meylliliklə eyni anlayışa malikdir. Alimə görə, "maraq müəyyən obyektlərə diqqəti yönəltməyə, onlarla tanış olmağa cəhd göstərmək meylidir" (6). Psixoloq İ.A.Zaytseva marağı obyektiv idraki maraq kimi qeyd edir. Onun fikrincə, insan bütün toplanmış informasiyaların mərkəzində olmağa meyllidir. İdraki maraqların təsiri altında fəaliyyət müəyyən istiqamətə yönəlir (7). İdraki maraq bu situasiyada xarici stimullara ehtiyac duymur və o aşağıdakılar hesabına daha möhkəmlənir:

* şəxsiyyətin təzahürü üçün onun başqalarına müsbət təsiri (diqqət, təfəkkür, hafizə, ümumi

fəallıq);

* özünüdərk prosesinə özünə və onun nəticəsinə marağın möhkəmləndirilməsi (şəxsiyyətin qabiliyyətlərinin təzahürü, problemli situasiyada yaranan sualların cavablandırılması, şəxsiyyətin sosial təcrübəsi, yeni biliklərin və dərketmə üsullarının əldə edilməsinə yönəlişlik).

İdraki maraq müəyyən nəticəyə yönəlmiş olur. Nəticəyə yönəlişlik fikri fəallığa istiqamətlənir. Özünüdərk prosesində idraki maraq nəticə əldə etməyə yönəlmiş tələbatda özünü göstərir. Maraq fikri fəaliyyətdə inkişaf edir və formalaşır. Ona təkcə fəaliyyətin ayrı-ayrı komponentləri deyil, həm də onun obyektiv-subyektiv mahiyyəti də təsir edir. Maraqların inkişafına kompleks şəkildə psixi proseslər, habelə şəxsiyyətin xüsusi vəziyyəti aid edilir. Psixoloq L.A.Qordonun fikrincə, idraki maraq emosional, iradi, intellektual proseslərin "qatışığıdır" və o, insanın fəaliyyətini və özünüdərkinin fəallığını artırır.

Tədqiqatçılardan: A.İ.Kondratyuk, A.V.Lebedeva, E.A.Menşikova və başqaları idraki marağı təlimin güclü motivi kimi nəzərdən keçirirlər. Q.İ.Şukina idrakı təlimin digər motivlərindən fərqləndirən əlamətləri qeydə almışdır. Alimin fikrincə: 1) idraki maraq təlimin digər motivləri arasında şagirdlərin üstün hesab etdikləri motivdir; 2) təlim motivi kimi şagirdlər tərəfindən dərk edilir; 3) o, motiv kimi qərəzsiz xarakter daşıyır; 4) o, daxili inkişafı təmin edir, fəaliyyətin gücünü artırır, habelə onun xarakterinə, yaranmasına və nəticəsinə təsir göstərir; 5) o digər motivlər dairəsində inkişaf edir və onlarla birgə fəaliyyət göstərir (11).

Digər motivlərlə birgə qarşılıqlı əlaqədə olan maraq motivlərin dinamik sistemini təşkil edir. O, fəaliyyət zamanı yoxa çıxmır. Əksinə, maraq digər motivlərin inkişafının nəticəsini sınaqdan keçirir və özü hərəkət edir. Psixoloq A.N.Leontyev qeyd edir ki, fəaliyyətə maraq oyatmaq üçün, ilk növbədə, həmin fəaliyyətə motiv yaratmaq lazımdır və ona motivə təhrik edən məqsəd, nailolma kimi baxılmalıdır.

Əsl maraq uzunmüddətli, davamlı, təlim fəaliyyətinin hərəkətli stimulu kimi o zaman baş verir ki, şagirdlərdə təcrübə, bilik və vərdişlər yaransın, habelə onlar məqsədin şəxsi və ictimai əhəmiyyətini düzgün dərk etmiş olsunlar. Bunlarla yanaşı şagirdlər başladıqları işə psixoloji baxımdan inamlı olub onu uğurla başa çatdırmağa cəhd göstərsinlər.

İdraki maraq təlimin hərəkətverici qüvvəsi və daxili stimulu kimi təzahür edir. Bununla yanaşı maraq şagirdlərin müsbət nəticə verən məqsədyönlü psixi vəziyyəti, o cümlədən təcrübənin və biliklərin toplumu, yaradıcı fəaliyyət sistemi kimi də nəzərdən keçirilir. Təlim fəaliyyətində idraki maraq özünüdərkin motivi kimi təzahür edir. O əvvəlcə motiv, sonra isə idraki istiqamətə yönəlir. İstiqamətlənmə əşyanı, özünüdərk prosesini və onun məzmununu genişləndirir.

İdraki maraq fəaliyyətin bilik, bacarıq və vərdişlərində reallaşır. Bilik, bacarıq və vərdişlərə yiyələnmənin səviyyəsi nə qədər yüksək olarsa şəxsiyyətin inkişaf prosesi bir o qədər intensiv şəkildə təzahür edəcəkdir. Digər tərəfdən isə idraki maraq özünüdərkə münasibət (intellektual, emosional, iradi) kimi həyata keçirilir. O, şəxsiyyətin hərəkətini və bütünlükdə onun inkişafının yüksək səviyyəsini şərtləndirir.

Təlim fəaliyyətində idraki maraq təlimin stimulu, vasitəsi və nəticəsi kimi özünü göstərir. İdraki maraq psixi proseslərin xarici stimulu, şagirdlərin fəal idraki fəallığının vasitəsi kimi nəzərdən keçirilir. O, təlim prosesinin cəlbedici və maraqlı olmasına imkan verir və müəllim üçün effektiv "instrument" olur.

Təlim prosesində idraki maraq təlim prosesində şagirdlərin qeyri-ixtiyari diqqətini özünə cəlb edir, onların yaradıcı təfəkkürünü fəallaşdırır, habelə yenilik, qeyri-adilik, gözlənilməzlik şagirdlərdə təəccüb hissini doğurur. Sadalanan bu xüsusiyyətlər idraki marağın artmasına şagirdləri təhrik edir.

Məhz onlar emosional-fikri prosesləri, habelə müşahidə etməyi, yada salmağı, müqayisə etməyi, situasiyadan çıxmağı gərginləşdirir. İdraki maraq təlimin hərəkətverici qüvvəsi kimi təzahür edərək şəxsiyyətin müxtəlif maraq- larının yaranmasına stimul yaradır.

Təlim prosesində idraki maraq problemlərinin işlənilməsi ilk dəfə Q.İ.Şukina tərəfindən həyata keçirilmişdir. Tədqiqatçı alim idraki maraqların inkişafının növbəti səviyyələrini müəyyən etmişdir: təəssüratlara tələbat (hər şeyi bilmək həvəsi), əşya və hadisələrin fəal axtarışı (öyrənmək həvəsi), özünüdərlə davamlı maraq və ya nəzəri maraq (11).

I səviyyə - təəssüratlara tələbatdır. O, ilkin səviyyə olub idraki marağın təməlini təşkil edir. Bioloji tələbatlar şagirdlərin təəssüratlarında, reflekslərə istiqamətdə özünü göstərir ("Bu nədir?").

II səviyyə - öyrənmək həvəsidir. Bu səviyyədə ayrı-ayrı stimullara deyil, həm də bütünlükdə obyektlərə yönəlmiş maraqda təzahür edir. Öyrənmək həvəsi bu və ya digər biliklərə maraqda, əşyaları öyrənməyə meyllilikdə istifadə olunur. Bu səviyyədə idraki maraq qeyri-mütəşəkkil xarakter daşıyır. Burada emosiyalar fəaliyyətin məqsədini ikinci plana yönəldir.

III səviyyə - idrak fəaliyyətinin məqsədyönlü səviyyəsidir (nəzəri səviyyədir). Bu səviyyədə marağın özünüdərkə istiqamətlənməsi sosial əhəmiyyətli məqsəd- lərlə müəyyən edilir. Belə hallarda idraki fəallıq müəyyən məqsədlərə malik olub obyektiv və faydalı nəticə verir. Habelə subyektiv olaraq bu fəaliyyət müsbət emosiyalarla müşayiət olunur. Məqsədyönlülük idrak prosesinin təşkilinə və təlim metodlarına düşünülmüş xarakter verir.

Beləliklə, kiçik məktəb yaşında müəyyən edilmiş xüsusiyyətlər əsasında idraki maraqların mahiyyəti aşıqlanır və təlim prosesinin keyfiyyətinə öz təsirini göstərir.

**Məqalənin aktuallığı.** Müasir təhsil sistemində təlim fəaliyyətində şagirdlərin idraki maraqlarının inkişaf etdirilməsi mühüm problem kimi həmişə diqqət mərkəzindədir. Şagirdlərin idraki maraqlarını inkişaf etdirmək üçün ilk növbədə onların fərdi-psixoloji inkişaf xüsusiyyətlərinin nəzərə alınması vacibdir. Odur ki, təlim prosesində şagirdlərin maraq, meyl və tələbatlarının, psixoloji xüsusiyyətlərinin nəzərə alınması aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** İdraki maraq təlimin hərəkətverici qüvvəsi kimi təzahür edərək şəxsiyyətin müxtəlif maraqlarının yaranmasına stimul yaradır. İdraki maraqların inkişaf səviyyələri tədqiq edilmiş və onların elmi izahı verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 2004.
2. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı, 2002.
3. Həmzəyev M. Ə. Pedaqoji psixologiya. Bakı, 1991.
4. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.
5. Баранова Э.А. Диагностика познавательного интереса у младших школьников и дошкольников. М: Речь, 2004.
6. Дейкина А.Ю. Познавательный интерес: сущность и проблемы изучения. М.: Просвещение, 2012.
7. Зайцева И.А. Формирование познавательного интереса к учению как способ развития креативных способностей личности. Ноябрьск, 2005.
8. Кондратюк А.И. Психологические особенности динамики познавательных Интересов учащихся. Киев, 1991.

9. Лебедева А.В. Уровни развития познавательного интереса у младших школьников // Среднее профессиональное образование. №2, 2010.

10. Меньшикова ЕА. Психолого-педагогическая сущность познавательного интереса // Вестник ТГПУ. №3, 2008.

11. Щукина Г.И. Педагогические проблемы формирования познавательных интересов учащихся. М.: Педагогика, 1988.

**Р.Н. Джабраилова**

## Когнитивные интересы детей младшего возраста в учебной деятельности психологический характер

### Резюме

Научная статья объясняет психологическое содержание и природу познавательных интересов и характеризует их в психологическом аспекте. В статье описаны отличительные признаки когнитивного обучения, которые отличаются от других мотивов. Автор справедливо указывает на то, что познавательный интерес является постоянной чертой личности и оказывает большое влияние на ее развитие. В научной статье дается обзор уровней развития познавательных интересов.

**R.N. Jabrayilova**

## Cognitive interests of younger children in learning activities psychological character

### Summary

The scientific article explains the psychological content and nature of cognitive interests and characterizes them in the psychological aspect. The article describes the hallmarks of cognitive training that differ from other motivations. The author rightly points out that cognitive interest is a permanent feature of the personality and has a great influence on its development. The scientific article provides an overview of the levels of development of cognitive interests.

**Redaksiyaya daxil olub:** 22.02.2020